**Azərbaycan Respublikasının**
**Auditorlar Palatası Şurasının**
**2012-ci il 17 iyul tarixli**
**233/1 saylı qərarı ilə təsdiq edilmişdir**

# Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə

# QAYDA

## 1.Ümumi müddəalar.

1.1. Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda (Bundan sonra "Qayda") Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olan auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi məqsədi daşıyır və sistemdaxili istifadə üçün nəzərdə tutulmuşdur.

1.2. Auditorun reytinqi- auditorların (auditor təşkilatlarının) öz fəaliyyətlərində əldə etdikləri nəticələrin rəqəmlə ifadəsidir.

1.3. Bu Qayda auditor xidməti ilə bağlı fərdi göstəricilərin əmsallarla ifadəsi metodundan istifadə olunmaqla hazırlanmışdır.

1.4. Reytinq auditorların (auditor təşkilatlarının) illik fəaliyyətlərinin yekununa əsasən müəyyən edilir.

1.5. Bu qaydaya uyğun olaraq hazırlanmış reytinqin nəticələri reklam məqsədilə istifadə edilə bilməz.

1.6. Auditorların (auditor təşkilatlarının) reytinqi Palata tərfindən yaradılmış xüsusi komissiya tərfindən bu Qaydaya əsasən müəyyənləşdirilir.

## 2.Tətbiq sahəsi.

2.1. Bu Qaydaya əsasən müəyyən edilmiş reytinq «Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanunu ilə nəzərdə tutulan fəaliyyət dairəsini əhatə edir.

2.2. Qayda Azərbaycan Respublikası ərazisində xüsusi razılıq (lisenziya) əsasında fəaliyyət göstərən auditorların (auditor təşkilatlarının) göstəricilərinə tətbiq edilir.

2.3. Reytinq cədvəlləri «Böyük dördlük», xarici audit təşkilatları, yerli auditor təşkilatları və sərbəst auditorlar üzrə ayrı tərtib edilir.

## 3.Reytinqin hesablanması üçün meyar göstəriciləri.

Reytinqin hesablanması üçün aşağıdakı meyar göstəricilərindən istsfadə edilir (məbləğlər - min manatla):

3.1.Orta müqavilə məbləği (min manatla);
3.2.Göstərilmiş auditor xidmətinin həcmi (min manatla);
3.3.Məcburi auditlə bağlı olmayan müqavilələrin sayı (ədədlə);
3.4.Sərbəst auditorların və auditor təşkilatının orta müqavilə məbləğləri (min manatla).

## 4. Reytinqin hesablanması metodikası.

4.1. Reytinq aşağıdakı qaydada hesablanır:
4.1.1. Göstərilmiş auditor xidmətinin həcminin hər min manatına 3 bal hesablanır;
4.1.2. Orta müqavilə məbləğinin hər min manatına 2 bal hesablanır;
4.1.3. Məcburi auditlə bağlı olmayan hər bir müqaviləyə 2 bal hesablanır;
4.1.4. Hər bir reytinq subyektinin orta müqavilə məbləği auditorun (auditor təşkilatlarının) Respublika üzrə orta müqavilə məbləğindən az (çox) olduğu halda 4.1.1-4.1.3-cü bəndlər üzrə hesablanmış balların cəmi onların nisbəti həcmində azaldılır (artırılır).

Yuxarıda göstərilən üsul aşağıdakı düsturla ifadə olunur:
R=(2*OM+ 3*ÜM +2*KS) * OM: ReOM
Burada:
R -Auditor təşkilatının və ya sərbəst auditorun reytinqi;
OM -Auditor təşkilatının və ya sərbəst auditorun orta müqavilə məbləği (min manatla);
ÜM - Auditor təşkilatının və ya sərbəst auditorun göstərilmiş auditor xidmətinin həcmi (min manatla);
KS - Məcburi auditlə bağlı olmayan müqavilələrin sayı;
ReOM –Respublika üzrə auditor təşkilatının və ya sərbəst auditorun orta müqavilə məbləği («Böyük dördlük», xarici audit təşkilatları, yerli auditor təşkilatları və sərbəst auditorlar üzrə ayrı-ayrı olmaqla - min manatla);

## 5. Xüsusi müddəalar

5.1. Auditor (auditor təşkilatı) barəsində sifarişçi təsərrüfat subyektindən və ya üçüncü şəxslərdən daxil olmuş hər bir haqlı şikayətə görə reytinq 10 bal azaldılır.